# Füzuli: uğurlu nəticələr, yeni hədəflər






❐ ***2016-cı il cəbhə bölgəsində yerləşən Füzuli rayonu üçün əlamətdar və yaddaqalan hadisələrlə zəngin olmuşdur. Hər şeydən əvvəl, qeyd edək ki, ölkə Prezidenti İlham Əliyevin bu il noyabr ayının 12-də rayona növbəti səfəri, burada keçirilən unudulmaz görüş və söhbətlər, başa çatdırılmış işlərin yüksək qiymətləndirilməsi, qarşıya qoyulmuş mühüm və təxirəsalınmaz vəzifələr, müəyyən edilmiş yeni hədəflər insanlarda böyük ruh yüksəkliyi, sabaha dərin inam və ümid yaratmış, bütün imkan və səylər hərəkətə gətirilmişdir.***

Digər mühüm cəhət isə ondan ibarətdir ki, ərazisinin böyük bir hissəsi hələ də düşmən tapdağı altında qalmasına, atəşkəs rejiminin hər gün pozulmasına, hücum və basqınlara baxmayaraq, bu il rayonda tikinti-quruculuq və abadlıq işləri, xüsusilə kənd təsərrüfatı məhsulları istehsalı əvvəlki dövrlə müqayisədə xeyli artırılmış, məhsuldarlıq yüksəldilmişdir. Təsadüfi deyildir ki, bu günlərdə Horadiz şəhərində keçirilən ümumrayon müşavirəsində də kənd əməkçilərinin – fermerlərin, taxılçıların, pambıqçıların, baramaçıların deməyə sözləri çox idi.

Əslində, bu ümumrayon toplantısı başa çatmaqda olan 2016-cı ildə rayonda kənd təsərrüfatı məhsulları istehsalı sahəsində əldə edilmiş uğurlara ilkin yekun vurulmasına, yeni imkan və ehtiyat mənbələrinin aşkar edilməsinə, qarşıda duran vəzifələrin dəqiqləşdirilməsinə həsr olunmuşdu. Bununla belə, müşavirənin işində müxtəlif idarə, müəssisə və təşkilat rəhbərləri, hüquq-mühafizə orqanlarının nümayəndələri də iştirak edirdilər. Bu, heç də təsadüfi deyildi. Axı indi ölkəmizdə kənd təsərrüfatı məhsullarının, xüsusilə onun xaricdən valyuta gətirən növlərinin istehsalının daha da artırılması diqqət mərkəzindədir və kənddə yaşayan hər kəs bu sahədə öz töhfəsini əsirgəməməlidir.

Müzakirəni giriş sözü ilə açan Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev Azərbaycan Prezidenti İlham Əliyevin ölkədə bütün region və sahələrin, o cümlədən kənd təsərrüfatının daha sürətli inkişafı ilə bağlı gerçəkləşdirdiyi sistemli və ardıcıl tədbirlərdən, bu istiqamətdə imzaladığı fərman və sərəncamlardan, ölkə başçısının cəbhə bölgəsi olaraq rayona gündəlik diqqət və qayğısından geniş söhbət açdı. İcra başçısı onu da vurğuladı ki, rayonun kəndlə bağlı fermer və sahibkarları bu diqqət və qayğıdan ruhlanaraq 2016-cı ildə əkin sahələrini daha da genişləndirmiş, ümumi məhsul istehsalını artırmışlar. Məsələn, artıq altıncı ildir ki, Füzuli taxıl istehsalına görə respublikanın 100 min tonçu rayonları sırasındadır.

Builki nəticələr də yaxşı olmuşdur. Bu mövsümdə rayon üzrə 35818 hektarda taxıl əkilmişdi ki, bu da əvvəlki ilə nisbətən 4134 hektar artıqdır. Bunun 23895 hektarı buğda, 11923 hektarı isə arpa olmuşdur. Havaların əlverişli keçməsi və əkinlərə aqrotexniki qulluq edilməsi taxıl sahələrindən bol məhsul götürülməsinə səbəb olmuşdur. Zəmilərin məhsulu çox qısa müddətdə, itkisiz biçilmiş, 121,1 min tondan artıq taxıl əldə edilmişdir. Hər hektarın məhsuldarlığı 34 sentnerə yaxın olmuşdur. Buğda istehsalında isə hektardan 37 sentner məhsul götürülmüşdür.

Dövlətimizin iqtisadi qüdrətinin artırılmasında mühüm sahələrdən sayılan taxılçılığın gələcəkdə daha böyük inkişafı bundan sonra da diqqət mərkəzində saxlanılacaq. Məlumdur ki, ərzaq bolluğu yaradılması, əhalinin mühüm strateji məhsul olan taxıla tələbatının daxili imkanlar hesabına ödənilməsi üçün ölkədə iri taxılçılıq təsərrüfatlarının yaradılması planlaşdırılıb. Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq rayonda bu il ilk dəfə olaraq hər biri 1000 hektar sahəni əhatə edən 4 iri taxılçılıq təsərrüfatı yaradılmışdır. Bu önəmli işə yerli mütəxəssislər cəlb olunacaq, həmin təsərrüfatlarda yüzlərlə məcburi köçkün çalışacaq. Belə iri təsərrüfatlarda istehsal olunacaq yüksək keyfiyyətli məhsul isə Dövlət Taxıl Fonduna tədarük olunacaq.

Aqrar rayon olan Füzulidə taxılçılıqla yanaşı, digər sahələrin də inkişafına xüsusi diqqət yetirilir. Ölkə başçısının respublikada ənənəvi təsərrüfat sahələri olan pambıqçılığın və baramaçılığın inkişaf etdirilməsi, əhalinin bu sahələrin hesabına məşğulluğunun təmin olunması barədə tapşırıqlarına uyğun olaraq, bu il rayonda 500 hektar sahədə pambıq əkilmişdi. Göstərilmiş lazımi qulluq nəticəsində tarlalarda bol məhsul yetişdirilmişdi. Ancaq təəssüf ki, havaların əlverişsiz keçməsi, günlərlə davam edən güclü yağışlar məhsul yığımında ciddi çətinliklər törətdi. Nəticədə, rayon üzrə cəmi 520 ton pambıq toplamaq mümkün oldu. Hava imkan versəydi bu rəqəmi, ən azı, 2-3 dəfə artırmaq olardı. Müşavirədə belə bir fikir böyük razılıqla qarşılandı ki, gələn il rayon pambıqçıları əkin sahələrini 2 min hektara çatdıracaqlar. Artıq kənd əməkçiləri emal müəssisələri ilə müvafiq müqavilələr bağlamışlar.

Rayonda ənənəvi təsərrüfat sahələrindən olan pambıqçılığın və baramaçılığın uzun fasilədən sonra bərpa edilməsini əhali böyük sevinclə qarşılamışdır. Bu sahələr ötən əsrin 70-80-ci illərində Füzuli rayonunda ən inkişaf etmiş və gəlirli sahələrdən hesab olunurdu. 1993-cü ildə rayonun işğal olunması ilə tənəzzülə uğrayan baramaçılığın uzun fasilədən sonra bərpa edilməsi, hazırda bazarda 1 kiloqram baramanın qiymətinin 8 manata olması kəndlilərin bu sahəyə marağını artırıb. Bu il kümçülər 3 tondan artıq barama istehsal ediblər. Gələn il isə bu rəqəmin 30 tona çatdırılması planlaşdırılır.

Heyvandarlığın inkişaf etdirilməsi də diqqət mərkəzindədir. Hazırda rayonda 35124 baş iri mal, 141348 baş qoyun-quzu, 360000 baş ev quşları var. Ötən aylar ərzində 1865 ton ət, 17476,5 ton süd, 6185 ədəd yumurta, 163 ton yun istehsal edilmişdir. Bunlar isə öz növbəsində əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə xeyli çoxdur.

Bundan başqa, rayonda 1703 ton kartof, 1380 ton şəkər çuğunduru, 6142 ton tərəvəz, 5456 ton bostan məhsulları, 290 ton üzüm, 94 ton günəbaxan, 1164 ton qarğıdalı istehsal olunmuşdur. O da sevindiricidir ki, əhalinin heyvandarlıq və bostan-tərəvəz məhsullarına olan tələbatı yerli istehsal hesabına ödənilir.

Rayonda sahibkarlığın inkişafına da ciddi fikir verilir. Yaradılan əlverişli şəraitin nəticəsidir ki, yüzlərlə şəxs sahibkarlıq fəaliyyəti ilə məşğul olur, rayon iqtisadiyyatının möhkəmləndirilməsində yaxından iştirak edir. Onlarla insan rayonda kənd təsərrüfatı istehsalı sahələri və kiçik emal müəssisələri açılaraq məhsul bolluğu yaradır, fəaliyyətlərini genişləndirir.

Müşavirədə bütün bunlar, əldə olunmuş digər göstəricilər böyük məmnunluqla qarşılansa da, heç də son hədd kimi qəbul edilmədi. Belə ki, ayrı-ayrı fermer və sahibkarlar, kənd adamları çıxış edərək qarşıdan gələn il üçün nəzərdə tutduqları planlardan danışdılar. Bəzi maraqlı məqamları yada salsaq yerinə düşərdi.

Fermer Oqtay Quliyev çıxış edərək bildirdi ki, yola saldığımız ildə 14 hektarda pambıq yetişdirilmişdir. Gələn il üçün planları daha böyükdür. Belə ki, onlar pambıq əkini sahələrini, ən azı, 50 hektara çatdırmağı qərara almışlar.

Şükürbəyli kəndinin kümçüləri cəmi 100 kiloqram barama əldə etmişlər. 2017-ci il üçün planları daha böyükdür. Ən azı, 1500 kiloqram barama tədarük ediləcəkdir. Bu sözlər isə rayon icra hakimiyyəti başçısının Şükürbəyli kəndi üzrə nümayəndəsi Ədalət Həsənovun çıxışında səsləndi.

2016-cı ildə Alıxanlı kəndində, ümumiyyətlə, barama qurdu saxlayan olmamışdı. Gələn il üçün isə məqsəd belədir: 2500 kiloqram barama əldə etməli. Kənd sakinləri adından bu sözləri rayon icra hakimiyyəti başçısının Alıxanlı kəndi üzrə nümayəndəsi Vaqif Hacıyev bildirdi.

Müşavirədə diqqəti cəlb edən daha bir cəhət ondan ibarət oldu ki, vəziyyətin düzgün qiymətləndirilməsi, mövcud imkan və ehtiyat mənbələrinin üzə çıxarılması, müqayisə və təhlillər fermer və sahibkarlara imkan verir ki, öz planlarına bir daha nəzər yetirsinlər, əkin sahələrini xeyli artırsınlar. Qeyd edildiyi kimi, bunun üçün rayonda hər cür şərait var – torpaq da, su da, işçi qüvvəsi də qədərincədir. Bu isə istər taxılçılıqda, istər pambıqçılıqda, istərsə də baramaçılıqda nəzərdə tutulmuş hədəfləri bir qədər də genişləndirməyə imkan verir.

Son illər cəbhə xəttində yerləşən Füzuli rayonunda iqtisadi, sosial və mədəni sahədə inkişaf yüksələn xətlə gedir, ardıcıl və sistemli xarakter daşıyır. Müşavirədə də qeyd edildiyi kimi, əldə edilmiş bütün bu uğurlar, hər şeydən əvvəl, Prezident İlham Əliyevin gündəlik diqqət və qayğısının, cəbhə bölgəsinə tarixi səfərlərinin, keçirilən görüş və söhbətlərin, verilən tövsiyələrin bilavasitə nəticəsidir.

Qarşıdan gələn 2017-ci ilin hədəfləri isə daha böyükdür. Müşavirədə belə bir yekdil fikir ifadə edildi ki, uğurlu estafet gələn il də davam etdiriləcək: bütün imkan və səylər hərəkətə gətiriləcək, ölkəmizdə ərzaq bolluğu yaradılmasına Füzuli öz sanballı töhfəsini verəcək.

***Ziyəddin SULTANOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***